# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:**

**"Biznes və logistika" kafedrasının**
**müdiri: i.e.n. dos. M.Ə.Əliyev**
**9 sentyabr 2025-cü il**

## "BEYNƏLXALQ TİCARƏT" fənni üzrə
## İŞÇİ TƏDRIS PROQRAMI
## (Sillabus)

### I. Fənn haqqında məlumat

**Fənnin kodu:** 00181 İF-013

**Fənnin növü:** *əsas*

**Tədris ili:** *2024/2025*

**Tədris semestri:** *yaz*

**Tədris forması:** *əyani*

**Fakültə:** Biznes və menecment

**Qrup:** 946,948

**Tədris yükü:** *60 saat (30/30)*

**Kredit sayı:** ____________

### II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** **dos.Aslanova M.M.**

**Kafedra:** Biznes və loqistika

**E-mail ünvanı:** **musluma_aslanova@unec.edu.az**

**İş telefonu:**

## III.Fənnin təsviri

"Beynəlxalq ticarət" fənnini oyrənməklə tələbələr beynəlxalq ticarət anlayışı və onun milli iqtisadiyyat üçün əhəmiyyəti, beynəlxalq ticarətin nəzəri əsasları və onların təkamülü, xarici ticarətin dövlət tənzimlənməsi, beynəlxalq ticarətin təşkili metodları, Ümumdünya Ticarət Təşkilatının tənzimləyici fəaliyyəti və s. haqqında kifayət qədər məlumat ala biləcəklər. Fənnin sillabusu 15 mövzudan ibarət olmaqla məntiqi ardıcıllıqla və üzvi bağlılıqla tərtib olunmuşdur. Bu mövzular eyni zamanda beynəlxalq ticarət praktikasının əsas məslələrini, o cümlədən beynəlxalq ticarət siyasəti alətlərinin tətbiqi, ticarət siyasətini formalaşdıran dövlət tədbirləri sistemi, xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə yönəlməklə, maddi istehsalın strukturunda, iqtisadiyyatın idarə edilməsində baş verən real prosesləri əks etdirir.

## IV. Fənnin tədrisinin əsas məqsədləri

"Beynəlxalq ticarət" fənninin mənimsənilməsinin məqsədləri:

- həm milli, həm də beynəlxalq səviyyədə xarici iqtisadi fəaliyyət sahəsində, xüsusən də xarici ticarət sahəsində peşəkar fəaliyyət göstərməyə qadir mütəxəssisin hazırlanmasının təmin edilməsi;
- beynəlxalq ticarətin strukturuna və dinamikasına təsir edən amillərin, ixrac və idxalın tənzimlənməsinin forma və üsullarının öyrənilməsi, milli xarici ticarət siyasətinin səmərəliliyinin təhlili bacarıqlarının aşılanması.
-

## V. Bakalavr pilləsi üzrə tədris planının strukturunda fənnin yeri

"Beynəlxalq Ticarət" fənni 00181 İF-013 şifrəsi ilə 050401 -"Beynəlxalq ticarət və loqistika" profili üzrə bakalavr hazırlığı üçün ixtisas fənləri blokuna aiddir. Bu kursun öyrənilməsində "Mikroiqtisadiyyat", "Makroiqtisadiyyat", "Beynəlxalq iqtisadiyyat" fənlərindən əldə olunan biliklərdən istifadə olunur və ticarət əlaqələrinin təşkili təcrübəsinə və onların beynəlxalq və milli səviyyədə tənzimlənməsinə, inkişaf meyllərinə dair nəzəri biliklərin dərinləşdirilməsinə yönəlmişdir.

Tələbələrin mənimsəmələrinə qoyulan əsas tələblər: beynəlxalq ticarət praktikasının, xarici ticarət siyasəti alətlərinin, beynəlxalq ticarətin təşkili metodlarının və Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyasının aktual məsələlərini öyrənmək və müvafiq mövzuların təqdimatına hazırlaşarkən istifadə etmək.

## VI. Tələbənin "Beynəlxalq ticarət" fənninin mənimsənilməsi nəticəsində formalaşan səriştələri.

Kurs aşağıdakı səriştələrin mənimsənilməsini təmin edir:

- dünya iqtisadiyyatı sistemində və beynəlxalq bazarlarda baş verən əhəmiyyətli problemləri və prosesləri təhlil etmək bacarığı ;
- qlobal mühitdə təsərrüfat subyektlərinin davranışının iqtisadi təhlili metodlarından istifadə bacarığına malik olmaq;
- beynəlxalq ticarətə dair milli və beynəlxalq hesabatlardan əldə edilmiş nəticələri ümumiləşdirmək və qiymətləndirmək bacarığı; beynəlxalq ticarətə dair aktual elmi problemləri müəyyən etmək və formalaşdırmaq;

- dünya mal və xidmətlər bazarının öyrənilməsi və məlumatların təhlili üçün müasir informasiya mənbələrindən səmərəli istifadə etmək bacarığı.

## VII. Fənnin mənimsənilməsi nəticəsində tələbə aşağıdakıları əldə etməlidir:

· **Bilməlidir:** müasir beynəlxalq ticarətin inkişafının əsas qanunauyğunluqlarını və meyllərini, onun əmtəə və coğrafi strukturunu; beynəlxalq ticarət əməliyyatlarının təşkili, forma və metodlarını.

· **Bacarmalıdır:** müasir beynəlxalq ticarət sistemində dövlətin, regional ticarət bloklarının yerini müəyyənləşdirmək və qiymətləndirmək.

· analitik yanaşma bacarıqları və onları beynəlxalq ticarət fəaliyyətinin aktual məsələlərinin öyrənilməsində və müxtəlif situasiyaların təhlilində tətbiq etmək bacarığı.

## VIII. "Beynəlxalq ticarət" fənninin strukturu və tematik planı

Fənnin tədrisi 60 saat həcmində (30 saat mühazirə və 30 saat seminar) nəzərdə tutulur.
Aralıq attestasiyanın forması yazılı imtahan formasında təşkil olunur.

### "Beynəlxalq ticarət" fənninin tematik planı

| № | Mövzu | Mühazirə | Seminar |
|---|---|---|---|
| | *BEYNƏLXALQ TİCARƏTİN NƏZƏRİ ƏSASLARI VƏ QLOBAL İQTİSADİ SİSTEMİN İNKİŞAFI* | | |
| Mövzu 1 | Beynəlxalq ticarətin klassik nəzəriyyələri | 2 | 2 |
| Mövzu 2 | Beynəlxalq ticarətin müasir (neotexnoloji) nəzəriyyələri | 2 | 2 |
| Mövzu 3 | Rəqabət üstünlükləri nəzəriyyəsi (M.Porter nəzəriyyəsi) | 2 | 2 |
| | *XARİCİ VƏ BEYNƏLXALQ TİCARƏT SİYASƏTİ* | | |
| Mövzu 4 | Xarici ticarətin tənzimlənməsinin tarif metodları | 2 | 2 |
| Mövzu 5 | Xarici ticarətin tənzimlənməsində qeyri-tarif məhdudiyyətlər | 2 | 2 |
| Mövzu 6 | Beynəlxalq ticarət siyasətinin tənzimlənməsində ÜTT-nin rolu və fəaliyyəti | 2 | 2 |
| | *BEYNƏLXALQ TİCARƏTİN STUKTURU VƏ DİNAMİKASI* | | |
| Mövzu 7 | Mallarla beynəlxalq ticarətin dinanikası, forma və metodları | 2 | 2 |
| Mövzu 8 | Xidmətlərlə beynəlxalq ticarət: formaları və dinamikası | 2 | 2 |
| Mövzu 9 | Əqli mülkiyyət obyektləri ilə beynəlxalq ticarət | 2 | 2 |
| | *BEYNƏLXALQ TİCARƏT ƏMƏLİYYATLARININ TƏŞKİLİ* | | |
| Mövzu 10 | Xarici ticarət kontraktları və onun strukturu | 2 | 2 |
| Mövzu 11 | Beynəlxalq kommersiya müqavilələrinin tənzimləyiciləri (UNCITRAL, İNKOTERMS və s.) | 2 | 2 |
| Mövzu 12 | Beynəlxalq hesablaşmalar və idxal-ixrac əməliyyatlarının kreditləşdirilməsi | 2 | 2 |
| | *BEYNƏLXALQ TİCARƏTİN FORMA VƏ METODLARI* | | |
| Mövzu 13 | Beynəlxalq birjalar, auksionlar və torqlar | 2 | 2 |
| Mövzu 14 | Elektron ticarət | 2 | 2 |
| | *AZƏRBAYCAN BEYNƏLXALQ TİCARƏT SİSTEMİNDƏ* | | |

| | | | |
|---|---|---|---|
| Mövzu 15 | Azərbaycanın xarici ticarət siyasəti və beynəlxalq ticarət əlaqələri sisteminə inteqrasiyası | 2 | 2 |
| | Cəmi | 30 | 30 |

## IX. Tələbələrin müstəqil işinə tədris-metodiki dəstək.

"Beynəlxalq ticarət" fənninin tədrisi zamanı tələbələrin aşağıdakı müstəqil iş formaları nəzərdə tutulur:

- Seminarlara hazırlıq, o cümlədən hesabatın hazırlanması və təqdim edilməsi;
- Beynəlxalq ticarətə dair hüquqi aktların xülasəsinin tərtib edilməsi;
- Əsas anlayışların öyrənilməsində terminoloji lüğətin tərtibi;
- Keys nümunələri əsasında tapşırıqların yerinə yetirilməsi.

Müstəqil işin əksər tapşırıqlarını yerinə yetirərkən tələbədən material toplamaq və təhlil etmək, elmi ədəbiyyatı ətraflı öyrənmək bacarıqlarını nümayiş etdirmək tələb olunur.

Sadalanan iş formalarının təşkili üçün tapşırıqlar və metodiki təvsiyyələri (seminarlar üçün planlar, məruzələr üçün tövsiyyələr) tələbələr semestrin əvvəlində və ya materialı öyrənərkən alırlar.

## X.Təhsil texnologiyaları

Mühazirələr, praktiki məşğələlər, qrup müzakirələri /müzakirələr, dərs zamanı kiçik qruplarda tapşırıqlar, keys, müstəqil iş qrupu/fərdi, təqdimatlar formasında təşkil olunur.

Beynəlxalq ticarət fənni üzrə aralıq imtahana təqdim olunan sualların siyahısı sillabusa əlavə olunur.

## XI. Əsas dərslik və ədəbiyyat


1. Pol R. Kruqman, Moris Obstfeld, Mark C. Melitz "Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət" Nyu York, 2011
2. Prof.Dr. Halil SEYİDOĞLU "ULUSLARARASI TİCARET" Anadolu Universitesi, Türkiye, 2019
3. Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009


## Əlavə dərslik və ədəbiyyat


1. Dr.Ayberk Şeker "Uluslararası ticaret" Ankara 2020
2. Anne Osborn Krueger "İnternational Trade: What Everyone Needs to Know", 2020
3. Jessie P. H. Poon,"International Trade:The Basics", 2017
4. M.M.Əhmədov "XİDMƏT SAHƏLƏRİNİN MARKETİNQİ", Bakı, 2015
5. AR və Ümumdünya Ticarət Təşkilatı (ÜTT) http://un.mfa.gov.az/az/content/39
6. ÜTT və Azərbaycan http://economy.gov.az/article/vto/21561
7. www.economy.gov.az AR İqtisadi İnkişaf Nazirliyi
8. www.azstat.org AR Dövlət Statistika Komitəsi
9. www.kitab.az Elektron Kitabxana Şəbəkəsi
10. World Trade Organization https://www.wto.org/


## XII. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## XIII. Mühazirə mövzularının əsas məzmunu

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Beynəlxalq ticarətin klassik nəzəriyyələri | Mövzuda merkantilizm nəzəriyyəsi və onun əsas nümayəndələrinin fikirləri, mütləq üstünlüklər nəzəriyyəsi, müqayisəli üstünlüklər nəzəriyyəsi barədə mülahizələr öz əksini tapmışdır | 1.Pol R. Kruqman, Moris Obstfeld, Mark C. Melitz “Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət” Nyu York, 2011<br>2.Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| 2 | Beynəlxalq ticarətin müasir (neotexnoloji) nəzəriyyələri | Mövzuda spesifik istehsal amilləri nəzəriyyəsi, əmtəənin həyat dövrləri nəzəriyyəsinin izahı və beynəlxalq ticarətin inkişaf prosesləri öz əksini tapmışdır | 1.Pol R. Kruqman, Moris Obstfeld, Mark C. Melitz “Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət” Nyu York, 2011<br>2.Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| 3 | Rəqabət üstünlükləri nəzəriyyəsi (M.Porter nəzəriyyəsi) | Mövzuda rəqiblərin fəaliyyətlərinin məqsəd və strategiyası, Rəqabət qabiliyyətliliyinə müxtəlif yanaşmaların təsnifatı, Rəqabət strategiyasında aparıcı beş güc, M.Porterə görə “Brilliant modeli”, Rəqabət üstünlü yünün qiymətləndirilməsinin metodoloji əsasları və praktiki əhəmiyyəti öz əksini tapmışdır. | 1.Pol R. Kruqman, Moris Obstfeld, Mark C. Melitz “Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət” Nyu York, 2011<br>2.Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| 4 | Xarici ticarətin tənzimlənməsinin tarif metodları | Xarici ticarət əməliyyatlarında tarif tənzimlənmə tədbirləri, Gömrük tarıfləri və funksiyaları, “Gömrük tarifi haqqında” qanun və gömrük tariflərinin tətbiqinin əsas məqsədi, XİF-in dövlət tənzimlənməsinin metodları öz əksini tapmışdır | 1.Pol R. Kruqman, Moris Obstfeld, Mark C. Melitz “Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət” Nyu York, 2011<br><br>2.Prof.Dr. Halil SEYİDOĞLU “ULUSLARARASI TİCARET” Anadolu Universitesi, Türkiye, 2019 |
| 5 | Xarici ticarətin tənzimlənməsində qeyri-tarif məhdudiyyətlər | Mövzuda İdxal əməliyyatlarında qeyri-tarif məhdudiyyətlər, QTM-in iqtisadi və inzibati metodları, antidempinq tədbirləri, kəmiyyət nəzarəti tədbirləri və s barədə geniş bəhs edilir | 1.Pol R. Kruqman, Moris Obstfeld, Mark C. Melitz “Beynəlxalq iqtisadiyyat: nəzəriyyə və siyasət” Nyu York, 2011<br>2.Prof.Dr. Halil SEYİDOĞLU “ULUSLARARASI TİCARET” Anadolu Universitesi, Türkiye, |

| | | | |
|---|---|---|---|
| | | | 2019 |
| 6 | Beynəlxalq ticarət siyasətinin tənzimlənməsində ÜTT-nin rolu və fəaliyyəti | Mövzuda beynəlxalq ticarət əlaqələrinin və iqtisadi əməkdaşlığın hüquqi tənzimlənməsi və hüquqi sistemin tənzimlənmə obyekti kimi beynəlxalq iqtisadi münasibətlərin formalaşdırılmasından danışılır. Beynəlxalq ticarət siyasətinin nizamlanmasında ÜTT-nın rolu və s. göstərilmişdir. | 1.AR və Ümumdünya Ticarət Təşkilatı (ÜTT) http://un.mfa.gov.az/az/content/39<br>2.ÜTT və Azərbaycan http://economy.gov.az/article/vto/21561<br>3.World Trade Organization https://www.wto.org/ |
| 7 | Mallarla beynəlxalq ticarətin dinamikası, forma və metodları | Mövzuda beynəlxalq ticarətin dinamikası və ərazi strukturu, beynəlxalq ticarətin mal strukturunun dəyişməsi, beynəlxalq ticarətin ərazi-mal strukturunun dinamikası və s. öz əksini tapmışdır. | .Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| 8 | Xidmətlərlə beynəlxalq ticarət: formaları və dinamikası | Mövzuda alqı-satqı münasibətləri sistemi, qiymət və investisiya siyasətinin işlənib hazırlanması, idarəetmənin müxtəlif səviyyələrində bazar proseslərinin tənzimlənməsi, xidmətlər bazarının statistik tədqiqinə daxil olan göstəricilər və s. öz əksini tapmışdır | 1.Prof.Dr. Halil SEYİDOĞLU “ULUSLARARASI TİCARET” Anadolu Universitesi, Türkiye, 2019<br>2.M.M.Əhmədov “XİDMƏT SAHƏLƏRİNİN MARKETİNQİ”, Bakı, 2015 |
| 9 | Əqli mülkiyyət obyektləri ilə beynəlxalq ticarət | Mövzuda intellektual mülkiyyət (Intellectual property) yaradılması, onların mübadiləsi və ya istifadəsi prosesində meydana çıxan münasibətlərin tənzimləndiyi hüququ özündə birləşdirən anlayış qiymətləndirilir. TRİPS sazişinin mahiyyəti və məqsədi və s. gösrərilmişdir. | *1.A* Prof.Dr. Halil SEYİDOĞLU “ULUSLARARASI TİCARET” Anadolu Universitesi, Türkiye, 2019<br>2.*Avropa Patent İdarəsi // Böyük İqtisadi Ensiklopediya* (az.). *I cild: ABCÇD. Bakı: "Şərq-Qərb" nəşriyyat evi. 2012. səh. 107–108.* |
| 1o | Xarici ticarət kontraktları və onun strukturu | Mövzuda müqavilələrin formaları və əmtəələrin göndərilməsi şərtləri, müqavilələrin bağlanması, dəyişdirilməsi və pozulması, Yüklərin göndərilmə müddəti, malların haqqının ödənilməsi şərtləri, qablaşdırılması və markalanması və s.göstərilmişdir. | 1.Prof.Dr. Halil SEYİDOĞLU “ULUSLARARASI TİCARET” Anadolu Universitesi, Türkiye, 2019<br>2.Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| 11 | Beynəlxalq kommersiya müqavilələrinin tənzimləyiciləri (UNCITRAL, | Mövzuda BMT-nın Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası-YUNİSTRAL-ın yaranmasıda məqsəd, UNCITRAL ticarət əməliyyatları üçün qaydalar, Beynəlxalq Ticarət Palatası tərəfindən yaradılmış bazis | 1. Prof.Dr. Halil SEYİDOĞLU “ULUSLARARASI TİCARET”Anadolu Universitesi, Türkiye, 2019 |

| | | | |
|---|---|---|---|
| | İNKOTERMS və s.) | şərtləri, İnkoterms qaydaları və s. öz əksini tapmışdır | 2. Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля»,Москва, 2009 |
| **12** | Beynəlxalq hesablaşmalar və idxal-ixrac əməliyyatlarının kreditləşdirilməsi | Mövzuda beynəlxalq hesablaşmaların müxtəlif formaları kimi inkasso, akkreditiv, bank köçürməsi, avans hesablaşamaları, açıq hesab üzrə hesablaşamalar, həmçinin veksellər və çeklər formasında hesablaşmalar idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları göstərilmişdir. | 1. Prof.Dr. Halil SEYİDOĞLU "ULUSLARARASI TİCARET" Anadolu Universitesi, Türkiye, 2019<br>2 .Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| **13** | Beynəlxalq birjalar, auksionlar və torqlar | Mövzuda birjanın yaranması, ilk birjalar, müasir əmtəə birjaları, onların təsnifatı, hərrac ticarətinin inkişaf meylləri, beynəlxalq torqlar, onların növləri və beynəlxalq hüquqi reqlamentasiyası barədə yanaşmalar öz əksini tapmışdır. | 1. Prof.Dr. Halil SEYİDOĞLU "ULUSLARARASI TİCARET" Anadolu Universitesi, Türkiye, 2019<br>2. Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| **14** | Elektron ticarət | Mövzuda elektron ticarətdə infrastruktur ilə iqtisadi fəaliyyət arasındakı əlaqə, müasir dünyada elektron ticarətin inkişaf problemləri, beynəlxalq təşkilatların elektron ticarətin qaydaları üzrə əsas tələbləri və tövsiyələri öz əksini tapmışdır. | 1.Prof.Dr. Halil SEYİDOĞLU "ULUSLARARASI TİCARET" Anadolu Universitesi, Türkiye, 2019<br>2. Й.В.Вавилова, Л.П.Бородулина «Международная торговля», Москва, 2009 |
| **15** | Azərbaycanın xarici ticarət siyasəti və beynəlxalq ticarət əlaqələri sisteminə inteqrasiyası | Mövzuda AR-nın beynəlxalq ticarət əlaqələri sisteminə inteqrasiyası, regional ticarət əlaqələri, ticarətin sosial-iqtisadi inkişafda rolu, ölkənin iqtisadi tərəfdaşlıq imkanları, ölkənin beynəlxalq ticarət siyasətinin prioritetləri, qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinin xüsusiyyətləri göstərilir. | 1.www.economy.gov.az<br>2.www.president.az<br>3.www.azerbaijan.az |

## XIV.Seminar-məşğələlər

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

## XV.Fənn üzrə qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.